**Nadir İsmayılov**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*kafedra_bibliograf@mail.ru*
**Leyla Abasova**
*Tarix üzrə fəlsəfə doktoru*
*sg.leyla@gmail.com*

**UOT-01**

# İQTİSADİYYAT ÜZRƏ SƏNƏD-İNFORMASİYA RESURSLARININ TİPOLOGİYASI

*Məqalədə iqtisadiyyat üzrə sənəd axınının tiplərə bölunməsində bir sıra əlamətlərin (məzmun, məqsəd təyinatı, oxucu təyinatı, sənədin formaları və ya növləri və s.) məzmununa uyğun olaraq həyata keçirilməsinin vacibliyindən bəhs olunur. Eyni zamanda qeyd olunur ki, məqsəd təyinatında iqtisadiyyat üzrə sənəd axının təbəqələşməsinə xüsusi diqqət verilməlidir. Bu zaman iki prosesi nəzərdə tutmaq lazımdır: 1) sənədlərin istehsal prosesi; 2) sənədlərin istifadə olunması prosesi.*

*Məqalədə sənəd axınının ayrılmasında iqtisadi biblioqrafiyanın formalaşmasında başlanğıc sayılan əsas kateqoriyalardan biri olan iqtisadi fəaliyyətin tətbiq edilməsidir. Sənədlərin istehsalı prosesi iqtisadi fəaliyyətin iki sferasında: iqtisadiyyat elmi və iqtisadi təcrübədə həyata keçirilir. Bu zaman iqtisadiyyat elmi sferasının tələbatını nəzərə alaraq iqtisadi ədəbiyyatın bu tiplərini ayırmaq olar: elmi-tədqiqat, elmi-kütləvi, tədris, soraq. Məqalədə bu qeyd olunan iqtisadi ədəbiyyatın tipləri ayrı-ayrılıqda tədqiqata cəlb olunmuşdur.*

***Açar sözlər:*** iqtisadiyyat, sənəd-informasiya resursları, tipologiya, nəşr, məqsəd təyinatı, sənəd, biblioqrafiya, elmi ədəbiyyat, soraq-məlumat ədəbiyyatı, elmi-kütləvi ədəbiyyat, tədris ədəbiyyatı, seriyalı nəşrlər.

**Giriş.** İqtisadiyyat üzrə sənəd-informasiya resurslarının öyrənilməsində əsas məsələlərindən biri - iqtisadiyyat üzrə təbəqələşmə problemidir. Bu problemi biblioqrafik informasiya mənbələrinin, başqa sözlə desək sənədlərin seçilməsinin ən əsas proseslərindən birinə tətbiq etməklə nəzərdən keçirilməliyik.

İqtisadiyyat üzrə sənəd axının ayrılması bir sıra əlamətlərin (məzmun, məqsəd təyinatı, oxucu təyinatı, sənədin formaları və ya növləri və s.) məzmununa uyğun olaraq həyata keçirilməlidir. Məqsəd təyinatında iqtisadiyyat üzrə sənəd axının təbəqələşməsinə xüsusi diqqət verilməlidir. Bu zaman iki prosesi nəzərdə tutmaq lazımdır: 1) sənədlərin istehsal prosesi; 2) sənədlərin istifadə olunması prosesi.

Sənəd axının ayrılmasında iqtisadi biblioqrafiyanın formalaşmasında başlanğıc sayılan əsas kateqoriyalardan biri olan iqtisadi fəaliyyətin tətbiq edilməsidir. Sənədlərin istehsalı prosesi iqtisadi fəaliyyətin iki sferasında: iqtisadiyyat elmi və iqtisadi təcrübədə həyata keçirilir. Bu zaman iqtisadiyyat elmi



sferasının tələbatını nəzərə alaraq iqtisadi ədəbiyyatın bu tiplərini ayırmaq olar: elmi-tədqiqat, elmi-kütləvi, tədris, soraq.

İqtisadi təcrübə sferasının tələblərinə görə ədəbiyyatın bu tipləri ayrıla bilər: soraq, istehsalat-iqtisadi, statistik. Nəzərə almaq lazımdır ki, iqtisadi ədəbiyyatın ən səciyyəvi tiplərindən biri statistika materiallarıdır. Sənədlərdən istifadə iqtisadi fəaliyyətin iqtisadiyyat elmi, iqtisadi təcrübə və iqtisadi təhsil kimi üç formasında həyata keçirilir. Məzmuna görə sənəd axının ayrılması zamanı iqtisadi elmlər sistemi haqqında, oxucu təyinatında isə iqtisadi informasiya istehlakçıları olan oxucu qrupları barədə aydın və dəqiq anlayış olmalıdır. İqtisadiyyat üzrə sənəd axının formal xüsusi aspektdə ayrılması kitab axını, kiçik məqalələr, paraqraflar üzrə düzəlmiş maddələr, nəşr olunmuş və nəşr olunmayan sənədlər kimi əsas istiqamətdə həyata keçirilir. Qeyd edək ki, hazırda ölkəmizdə iqtisadi ədəbiyyat nəşr edən çoxlu sayda (dövlət və ya özəl) idarələr və nəşriyyatlar fəaliyyət göstərir [7, 320].

Bu məqalədə hər şeydən əvvəl bir sıra əlamətlərin məcmusundan asılı olaraq iqtisadiyyat üzrə sənəd axının ayrılması problemi barədə məlumat verməyə çalışacağıq. Onu da qeyd edək ki, iqtisadiyyata dair sənəd axını iqtisadi ədəbiyyatın ayrılması və onun müxtəlif tiplərinin ümumiləşdirilmiş xarakteristikasının məqsədli təyinatına görə tipoloji təhlil planı üzrə işlənir. Sonra isə müasir mərhələdə Azərbaycan mətbuatının iqtisadiyyat və iqtisadi-hüquqi sənəd axının məzmunlu, dolğun strukturu nəzərdən keçirilir.

Yuxarıda qeyd edildiyimiz kimi, iqtisadiyyat üzrə sənəd axını formal görünən aspektdə ayırmaq olar: kitab axını, məqalə axını, nəşr olunmamış və nəşr olunmayan sənədlər. Bu zaman nəzərə almaq lazımdır ki, iqtisadiyyat üzrə sənəd axının ayrılmasının bütün əlamətləri vəhdət təşkil edir və qarşılıqlı əlaqədədirlər. Hər bir sənədin müəyyən məzmunu, məqsədli təyinatı, oxucu təyinatı var, müəyyən tipli ədəbiyyata və nəşr növünə aiddir. Buna görə də təyin edilən aspektdə sənəd axının ayrılması zamanı materialın təkrarlanmasından qaçmaqdan ötrü öyrənmək üçün onun adekvat, başqa sözlə desək tam uyğun hissəsi təklif edilir. Məsələn, kitab axınının onun məqsəd təyinatına görə ayrılması üçün iqtisadi ədəbiyyat tipinin ümumi xarakteristikası təklif edilir. İqtisadi məsələlər üzrə məqalələr müxtəlif dövri nəşrlərdə öz əksini tapır.

İqtisadiyyat sferasındakı proseslər normativ rəsmi sənədlər (qanunlar, əmrlər, qərarlar, instruksiyalar və i.a.) məcmusu ilə tənzimlənir. Bu sənədlərin öz spesifikası var. Onlar məzmunca, məqsəd və oxucu təyinatına görə müxtəlifdirlər. Bunlara ya sənəd axının tipoloji təhlili, ya da məzmun aspektində xarakteristikası planında baxmaq olar. Hər iki yanaşma qanunauyğundur. Lakin, rəsmi-normativ sənədlərin çoxaspektli olduğunu nəzərə alsaq, bunlara iqtisadiyyata dair sənəd axının dolğun, məzmunlu quruluşunun bir halqası kimi baxmaq məqsədə uyğun olar.

İqtisadi informasiya istehlakçılarının ayrılması və onların informasiyaya olan tələbləri, iqtisad elmi, iqtisadi təcrübə, iqtisadi təhsil istehlakçılarının informasiya tələbatı strukturu barədə məlumat almaq olar; iqtisadi informasiya

istehlakçılarının ayrılması problemi tipoloji xüsusiyyətlərin öyrənilməsində əsas məsələlərindən biridir.

Sənədlərin oxucu təyinatının və biblioqrafik xidmət vasitələrinin aydın müəyyən olunması üçün bu problemin araşdırılması zəruriliyi vacibdir. İqtisadi informasiya istehlakçılarının ayrılmasında əsas meyar kimi iqtisadi fəaliyyət sferası əlamətindən istifadə etmək olar. Bununla əlaqədar olaraq iqtisadiyyat elmi sferasında iqtisadi informasiya istehlakçılarını bu qruplara ayırmaq olar: 1) iqtisadçı-nəzəriyyəçilər; 2) iqtisadçı-tarixçilər; 3) müasir iqtisadi problemləri işləyən, araşdıran iqtisadçılar.

İqtisadi praktika (təcrübə) sferasında informasiya istehlakçılarını bu qruplara ayırmaq olar: 1) dövlət hakimiyyəti orqanları və dövlət idarələri işçiləri; 2) iqtisadçılar; 3) biznes sferası mütəxəssisləri; 4) marketinq, menecment üzrə mütəxəssislər; 5) mühəndis-texniki işçilər; 6) hüquqşünas-praktiklər; 7) xalq təsərrüfatının müxtəlif sahələrində işləyənlər; 8) fermerlər və kənd təsərrüfatının digər mütəxəssisləri.

İqtisadi təhsil sferasında bölmədən iqtisadi informasiya istehlakçılarının bu qrupları əsas sayılır: 1) müəllimlər; 2) aspirantlar; 3) tələbələr; 4) şagirdlər (kommersiya birliklərində, biznes məktəblərində, orta məktəblərdə və s.)

İqtisadiyyat sahəsində bu əsas qrupları ayırmaq olar: 1) sənəd informasiya istehlakçıları; 2) biblioqrafik informasiya istehlakçıları; 3) faktoqrafik informasiya istehlakçıları. Bunların ayrılmasında əsas meyar – informasiyanın adekvat, başqa sözlə desək uyğun növləri: sənəd, biblioqrafik, faktoqrafik informasiya istehlakçıları. Hər bir informasiya tələbatı növləri içərisində peşəkar və qeyri-peşəkar informasiya istehlakçısı ayırmaq olar. İqtisadiyyat sahəsində informasiya tələbatının ayrılması probleminin araşdırılması biblioqrafik təminat metodikası və biblioqrafik xidmət üçün ən mühüm amil sayılır. İqtisadiyyat sahəsində biblioqrafik tələbatların formalaşmasına diqqət yetirmək xüsusi əhəmiyyət kəsb edir. İqtisadi informasiya istehlakçılarının və onların informasiya tələbatının ayrılması probleminin öyrənilməsi, iqtisadiyyat elmi, iqtisadiyyat praktikası, iqtisadi təhsil sferası informasiya istehlakçılarının informasiya tələblərinin quruluş xüsusiyyətlərinin araşdırılmasını təmin edir [7, 320].

**Əsas hissə.** Gəlin indi iqtisadiyyat üzrə sənəd informasiya resurslarının tiplərini ayrı-ayrılıqda nəzərdən keçirək.

İqtisadiyyat üzrə sənəd-informasiya resurslarının tipləri içərisində birinci yeri elmi ədəbiyyat tutur. **Elmi ədəbiyyat -** Elmi-tədqiqat ədəbiyyatının əsas janrları monoqrafiyalar, ümumiləşdirici əsərlər, məqalə topluları, görkəmli iqtisadçıların seçilmiş əsərləridir. İqtisadiyyat sahəsində elmi tədqiqatların tematikası müasir mərhələdə iqtisad elmi qarşısında duran vəzifələrlə şərtləndirilir və o çox müxtəlifdir. Hazırki vaxtadək marketinq, menecment, qiymətqoyma, sahibkarlıq, vergilər nəzəriyyəsi, investisiya fəaliyyəti, qiymətli kağızlar bazarı və s. kimi aktual iqtisadi məsələlərə dair monoqrafiyalar və ümumiləşdirici əsərlər nəşr olunmuşdur.



İqtisadiyyat üzrə elmi-tədqiqat ədəbiyyatının buraxılmasında tendensiyalardan biri çoxlu tərcümə ədəbiyyatının nəşridir. Konyuktur tədqiqatlar daxil olmaqla marketinq tədqiqatçılarına, bazara marketinq vasitəsinin təsiri, bazarın özünə dair məsələlərin öyrənilməsi, bazar tələbatının formalaşması və inkişaf amilləri, bazarın, qiymətqoyma sistemi, bazar konyukturasının analizi və proqnozu, incəsənət, idarəetmə təcrübəsi və s. kimi elmlərə menecmentin vəziyyətinə böyük diqqət verilir.

İqtisadiyyat üzrə sənəd axınında namizədlik və doktorluq dissertasiyalarının və avtoreferatların, depozitə qoyulmuş əlyazmaların, hesabatların böyük massivi xüsusi yer tutur. Bu sənədlər "İctimai və humanitar elmlər üzrə yeni ədəbiyyat. İqtisadiyyat" adlı göstəricidə (RF) öz əksini tapır.

Ölkəmizdə mövcud iqtisadi informasiya resurslarını qruplaşdıraraq müəyyən nəticələr əldə etmiş olduq [bax: diaqram 1]:

**Diaqram 1**




**İqtisadiyyata dair elmi-kütləvi ədəbiyyat.** İqtisadiyyata dair nəşrlərin tematikası müxtəlifdir: müasir iqtisadiyyatın mahiyyəti və onun mənbələri, müasir bazarın strukturu, bazar şəraitində maliyyə-pul sisteminin hərəkəti və tənzimlənməsi, iqtisadi qanunların təsir xüsusiyyətləri, maddi nemətlərin yaradılma prinsipləri, cəmiyyətdə əməyin, əmək, əmək vasitələrinin rolu, mülkiyyətin müxtəlif formaları şəraitində iqtisadi maraqların xüsusiyyətləri, ictimai münasibətlərin yenidən qurulmasında insanın rolu, iqtisadi kateqoriyalar və s.-in mahiyyətinin aydınlaşdırılması və i.a.

**İqtisadiyyatda və iqtisadi-hüquqi məsələlərə dair tədris ədəbiyyatı.** Dərsliklər və dərs vəsaitlərinin nəşri bazar münasibətləri şəraitində xüsusi əhəmiyyətə malikdir. Ölkəmizdə bu cür ədəbiyyat dövlət və özəl nəşriyyatlar tərə-

fində işıq üzü görür. İqtisadi-hüquqi tədris ədəbiyyatını janrlara görə dərsliklərə, dərs vəsaitlərinə, mühazirələrə ayırmaq olar.

Son illərdə iqtisadi-hüquqi tədris ədəbiyyatının nəşrində təmayüllərdən biri aktual iqtisadi-hüquqi məsələlər üzrə avtorizə edilmiş nəzəri kursların daha çox meydana gəlməsidir. Bundan əlavə, tədris-təcrübə vəsaitləri kimi tədris ədəbiyyatı janrının genişlənmə tendensiyası müşahidə olunur. İqtisadi-hüquqi tədris ədəbiyyatının tematikası da müxtəlifdir.

Tədris ədəbiyyatının müxtəlif janrları yeni şəraitdə bazar iqtisadiyyatı, əmək hüququ, əhalinin məşğulluğunun hüquqi təmin edilməsi, kommersiya və başqa müəssisələrin fəaliyyətinin hüquqi aspektləri, təsərrüfat, müqavilə, ticarət, sığorta hüquqları, xarici iqtisadi fəaliyyətin hüquqi tənzimlənməsi, beynəlxalq bank hesabatları, mühasibat uçotu və s. əsasında nəşr olunur.

Siyasi iqtisad üzrə (İqtisadi nəzəriyyə), xüsusi və sahəvi iqtisadi fənlər üzrə tədris ədəbiyyatı nəşr olunur. Bu ədəbiyyatların əksəriyyəti Azərbaycan dilində, müəyyən hissəsi rus, çox az bir qismi, ingilis, alman dillərindədir. Tərcümə ədəbiyyatı içərisində biznesmenlər, bankirlər, xarici partnyorlarla işləyənlər üçün sənədlərdən, (bank korrespondensiyaları (yazışmaları), iş məktubları, telekslər, kontraktlar, maliyyə sənədləri və s.) baş çıxarmağa kömək edir.

İqtisadi dövri mətbuatda, xüsusilə iqtisadi jurnallarda tez-tez dərsliklərin reklamı təklif edilir. "Tənqid və biblioqrafiya" bölməsində dərsliklər də daxil olmaqla iqtisadi ədəbiyyatın müxtəlif tiplərinə rəylər verilir.

**Soraq ədəbiyyatı.** İqtisadiyyata dair soraq ədəbiyyatını iki qrupa bölmək olar:

1) iqtisadi sferada istehsal olunan ədəbiyyat;
2) təsərrüfat təcrübəsi sferasında istehsal olunan ədəbiyyat.

Soraq ədəbiyyatının differensiasiyasının əsas meyarı məqsəd təyinatıdır. O oxucu təyinatlı da ola bilər. Soraq ədəbiyyatının əsas janrları ensiklopediyalar, lüğətlər, soraq kitabçaları, iqtisadi hadisələr və faktlar xronikası, biznes-kartlar və s.-dən ibarətdir.

Bazar münasibətləri şəraitində marketinq, menecment, bank işi, birja fəaliyyətinə dair soraq ədəbiyyatı, xüsusilə də son illərdə xeyli artmışdır. İqtisadiyyata dair soraq ədəbiyyatı buraxılması tendensiyalarından biri paralel olaraq rus və ingilis dillərində lüğətlərin və məlumat kitabçalarının nəşridir. Bu nəşrlərə beynəlxalq maliyyə, valyuta, birja terminləri daxildir. Müasir dövrümüzdə dünya bazarı qiymətləri soraq-məlumat kitabları, biznesə dair ingiliscə-rusca lüğətlər, sığorta terminləri lüğətləri, ticarət terminlərinin izahına dair beynəlxalq qaydalar, biznesə, marketinqə, kommersiyaya dair izahlı lüğətlər, təsərrüfat rəhbərləri, sahibkarlar, kommersantlar, biznesmenlər üçün stolüstü kitablar və s. nəşr edilməkdədir.

Sonunculara çox böyük bazar iqtisadiyyatı üzrə soraq-məlumat kitabları, əsas fəaliyyət növləri (istehsalat, kommersiya, elmi və s.) üzrə tələbat mallarının, istehsalat-texniki fəaliyyətli məhsulların, qiymətli kağızların alqı-satqısında şərikli fəaliyyətin əsas növləri və s. təsərrüfat müqavilələri nümunələrinin



komplektləri (dəstləri), birjaların broker kontorları və firmalarının ünvan və telefonları daxil edilir. İş adamlarının marketinq, menecment, müxtəlif profilli birjaların fəaliyyəti, maliyyə, qiymətqoyma, bank işi və s. sahələrdən olan terminlərin verildiyi lüğətlər nəşr edilir. Həmçinin ayrı-ayrı ölkələrin iqtisadiyyatına dair ədəbiyyatın daxil edildiyi məlumat kitabçaları, xarici ticarət sənədlərinin verildiyi lüğətlər də çapdan buraxılır.

İş adamları və elmi işçilər üçün Azərbaycan-ingiliscə; Azərbaycan-rus danışıq lüğətləri meydana gəlmişdir. Bunlarda çox vaxt lisenziyalar, kontraktlar (müqavilələr), avadanlıq və materialların təchizatı, konfranslara dəvətlər və s. dair danışıq ştampları olur. İstehsalatçı-mütəxəssislər üçün ünvanlanmış soraq-məlumat kitabçaları, biznesmen hazırlayan müəllimlər, məktəb müdavimləri də istifadə edə bilər.

Soraq-məlumat ədəbiyyatı tematikasına görə aşağıdakı istiqamətlərə ayrılır: müəssisə rəhbərləri, kommersantlar, biznesmenlər üçün stolüstü kitab olan bazar iqtisadiyyatı lüğət, soraq-məlumat kitabçaları, iş adamının lüğətləri, biznes-lüğətləri, bazar, sahibkarlıq, kooperasiyalar məsələsinə dair izahlı lüğət-soraq kitabçaları, mühasibat uçotu, maliyyə-kredit mexanizmi, funksional-qiymət analizi məsələlərinə dair lüğətlər, menecerin soraq-məlumat kitabçaları, iqtisadi-riyazi lüğətlər, kooperativlərə həsr olunan soraq kitabçaları, xarici ticarət, ticarət, xammal ehtiyatlarına və s. aid soraq-məlumat kitabçaları.

Hazırda soraq-məlumat ədəbiyyatı nəşrində bu təmayüllər müşahidə olunur:

1) soraq-məlumat nəşrlərinin növ tərkibinin genişləndirilməsi;
2) soraq-məlumat nəşrlərinin geniş mütəxəssis dairələri üçün əlverişliliyi.

Zamanın bu tələblərinə cavab olaraq akademik Ziyad Səmədzadənin ideya müəllifliyi və baş redaktorluğu ilə respublikada ilk dəfə irihəcmli fundamental "Böyük İqtisadi Ensiklopediya" hazırlanmış və nəşr edilərək oxucuların müzakirəsinə verilmişdir. Olduqca böyük zəhmətin nəticəsi olan "Böyük İqtisadi Ensiklopediya"nı vərəqləyib dünya iqtisadiyyatının tarixi, bu gün iqtisadi həyatın müxtəlif sahələrində istifadə edilən terminlərin mahiyyəti, görkəmli iqtisadçıların fəaliyyəti barədə və verilən yazılarla tanış olmaq mümkündür.

2012-ci ildə "Latterpress" Nəşriyyat evində akademik Ziyad Səmədzadənin ideya müəllifliyi və Baş redaktorluğu ilə 5 cilddə, 64x90 formatda, 2000 tirajla (hər bir cild), "Böyük İqtisadi Ensiklopediya" çap olunmuşdur. Bu ensiklopediya 7000-dən çox sözü əhatə etməklə Rusiya Federasiyası istisna olmaqla MDB məkanında milli dildə işıq üzü görən ilk iri həcmli nəşrdir.

Ölkəmizin elmi-ictimai həyatında mühüm hadisə kimi dəyərləndirilən "Böyük İqtisadi Ensiklopediya"nın hazırlanması işinə respublikamızın ən nüfuzlu alim və mütəxəssisləri cəlb edilmişlər. Onların fəal yaradıcı əməyi ilə ensiklopediyada iqtisadi termin və anlayışların, nəzəriyyə və baxışların mükəmməl izahları verilmiş, iqtisadi hadisələrin məzmunu və əhəmiyyəti yüksək peşəkarlıqla açıqlanmış, müasir gerçəkliklər fonunda dünya iqtisad elminin nailiyyətləri hərtərəfli işıqlandırılmışdır. Ensiklopediyaya daxil edilən hər bir termin və anlayışın məzmunu onların dəfələrlə müzakirəsi, ekspertiza edilməsi

ilə bir daha aydınlaşdırılmış, məqalələrin əksəriyyəti müvafiq iqtisadi strukturlarda baxılmış, yaradıcı heyətin ayrı-ayrı mənbələrdən ünvanına göndərilən dəyərli tövsiyə və təkliflər nəzərə alınmışdır.

Beş cilddən ibarət, 10 minə yaxın termin, iqtisadi anlayış və məqaləni özündə ehtiva edən "Böyük İqtisadi Ensiklopediya" çoxsaylı nəzəri, faktoroloji material əsasında ictimai həyatdan gələn sualları cavablandırmaqla oxucuya çoxsaylı iqtisadi hadisələr, kateqoriyalar, modellərlə bağlı zəruri informasiya verir. Burada makroiqtisadi tarazlıq, marketinq, investisiya, menecment, maliyyə, audit, mühasibatlıq, pul-kredit, qiymətli kağızlar bazarı, rəqabət, inhisar, innovasiyalar, nanoiqtisadiyyat və digər bu kimi çoxsaylı anlayışların mahiyyəti yeni elmi interpretasiyada acıqlanır, iqtisadiyyatın bütün səviyyələri üzrə, müxtəlif iqtisadi nəzəriyyələr, iqtisadi sistemlərin problemləri, elmi iqtisadi məktəblər və onların görkəmli nümayəndələri haqqında mühüm məlumatlar əksini tapır. Ensiklopediyanın hazırlanmasında dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyat luğətlərindən, statistik külliyyatlardan, beynəlxalq iqtisadi, maliyyə-bank, əmək təşkilatlarının internet resurslarından səmərəliliklə istifadə olunmuşdur. Azərbaycanın müasir iqtisadi-hüquqi, sosial-siyasi sisteminin müxtəlif aspektlərinin geniş işıqlandırılması ensiklopediyanın mühüm fərqləndirici cəhətlərindən biridir. Burada müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artmasına, dünya iqtisadiyyatına inteqrasiyasına xidmət edən inkişaf strategiyası, azad bazar munasibətlərinin genişlənməsinin və milli maraqlara cavab verən yeni iqtisadi sistemin formalaşmasının elmi-metodoloji əsasları və mahiyyəti barədə konkret fakt və dəlillərə istinad edən məqalələr əksini tapmışdır. Ensiklopediyada ölkənin sosial-iqtisadi inkişafını kompleks şəkildə təfərrüfatlandıran milli təbii sərvətləri, sənaye və innovasiya potensialı, sahə və müəssisələrin investisiya imkanları, sosial və istehsal infrastrukturu, dövlət və hökumət strukturları, xarici iqtisadi əlaqələr coğrafiyası, beynəlxalq təşkilatlarda təmsilçilik, milli iqtisadi nailiyyətlər haqqında tutumlu məlumatların elmi-analitik, statistik və qrafik tərtibatda verilməsi ensiklopedik innovasiya kimi qiymətləndirilməlidir [1, 612].

Digər iqtisadi soraq-məlumat kitabı olan "Vergi ensiklopediyası"nı nümunə kimi qeyd edə bilərik. Belə ki, Azərbaycan Respublikası vergilər nazirinin 16 dekabr 2011-ci il tarixli 1117040101734200 nömrəli əmrinə əsasən hazırlanmış və 2013-cü ildə 424 səhifə həcmində çap edilən mühüm fundamental nəşrlərdən biri də "Vergi ensiklopediyası"dır. Ensiklopediyada Azərbaycanın və dünyanın inkişaf etmiş ölkələrinin vergi sistemlərində tətbiq edilən əsas termin və anlayışların izahı verilmişdir. Burada Azərbaycan Respublikasının Vergi Məcəlləsində, gömrük qanunvericiliyində, vergilərə aid digər normativ aktlarda olan müddəalar, ölkəmizdə ödənilən vergi və yığımlar əks olunmuşdur [6, 424].

Ensiklopediyadan vergi və gömrük işçiləri, vergi planlaşdırılması üzrə mütəxəssislər, hüquqşünaslar və auditorlar, ali məktəblərin müəllimləri, iqtisadiyyat və hüquq ixtisasları üzrə təhsil alan tələbələr, doktorantlar, həmçinin bütün vergi ödəyiciləri istifadə edə bilərlər.

2013-cü ilin əvvəllərində ensiklopediyanın hazırlanması üzərində iş başa çatdırılmış, vergilər haqqında məlumatlarla zəngin olan toplu vergi işçilərinin peşə bayramı ərəfəsində kütləvi tirajla çap edilmişdir. "Vergi ensiklopediyası"nda izahı verilmiş 1505 söz, termin və anlayışın hər biri müasir vergitutma nəzəriyyəsi və praktikasında geniş istifadə edilir, vergilərin və vergi siyasətinin düzgün qavranılmasında dil materialı kimi əvəzsiz rol oynayır. Buradakı mətnlər elmi-publisistik üslubun tələblərinə cavab verməklə yanaşı, yığcamlılığı, səlisliyi, aydınlığı və məntiqi cəhətdən mükəmməlliyi ilə seçilir. Çoxsaylı nəzəri və faktiki materialların əsas götürüldüyü, vergilərin tarixi təkamülünü və müasir inkişaf xüsusiyyətlərini özündə ehtiva edən ensiklopediyada ölkəmizdə və dünyada qədim dövrlərdən mövcud olan, ayrı-ayrı tarixi mərhələlərdə və müxtəlif dövlət quruluşlarında istifadə olunan, hazırda da geniş tətbiq dairəsinə malik vergi növləri və üsulları haqqında məlumat verilmişdir. Oxucular buradan çeşidli vergi nəzəriyyələrinin mahiyyəti, elmi dövriyyəyə yeni daxil olan termin və anlayışlar, informasiya texnologiyalarının sürətli inkişafı ilə əlaqədar vergitutmanın texniki imkanlarını genişləndirən metod və hadisələr barədə maraqlı və zəruri informasiya ala bilərlər. Azərbaycanın və digər ölkələrin vergi sistemlərində tətbiq edilən qaydalardan ətraflı bəhs edilməsi, hər bir vergi növü və rüsumlar üzrə hesablaşma və ödənişlərin mahiyyətinin konkret nümunələr əsasında şərhi, vergi münasibətlərinin hüquqi tənzimlənməsinə aid normativ termin və anlayışların dəqiq və ətraflı izahı ensiklopediyanın mühüm özəlliklərindəndir [6, 424].

Ümumiyyətlə, aparılan araşdırmalar nəticəsində məlum olur ki, son illər ölkəmizdə iqtisadiyyata dair soraq-məlumat nəşrlərinin çap olunmasında xeyli irəliləyiş özünü göstərməkdədir.

Son illərdə çap edilən soraq-məlumat nəşrlərində müəssisə ünvanlarının göstərilməsi sahibkarlar üçün böyük maraq kəsb edir.

"Biznes-kart" soraq-məlumat nəşrlərində təmayüllərdən biri də onların tematik istiqamətləridir. Belə soraq kitabçalarında ölkə bankları, aksioner cəmiyyətlər, assosiasiyalar, kooperativlər, kiçik müəssisələr, şirkətlər və onların buraxdıqları məhsul, ictimai-iqtisadi potensialı barədə, icra hakimiyyəti barədə və s. məlumatlar verilir.

İşgüzar soraq-məlumat seriyalı kitabçalarda müxtəlif məhsul növlərinə dair informasiya qeyri-dövlət mülkiyyət forması olan sənaye müəssisələri tərəfindən buraxılmış müxtəlif məhsul növlərinə dair informasiyalar oxuculara təqdim edilir. İnformasiya axtarışını həyata keçirmək üçün hər hansı bir nəşrdə məhsulun adlarının əlifba qaydasında düzülməsi əsas götürülməlidir.

**İstehsalat-iqtisadi ədəbiyyat.** Ədəbiyyatın bu tipi iqtisadi praktika mütəxəssislərinin müxtəlif kateqoriyalarının tələbləri üçün nəzərdə tutulur. Bazar münasibətləri şəraitində iqtisadiyyat üzrə sənəd axınının xüsusiyyətləri isteh-

salat-praktika (təcrübə) xarakterli çox böyük miqdarda ədəbiyyatın meydana gəlməsidir.

İstehsalat-iqtisadi ədəbiyyatı bu janrlara bölmək olar: qanunverici, instruktiv və metodiki materiallar məcmuələri, praktiki vəsaitlər, metodiki vəsaitlər, praktiki dərsliklər və s.

Özəlləşdirmə, maliyyə, mühasibat uçotu, birja fondu, Azərbaycanın investisiya hüququ, valyuta əməliyyatlarına dair qaydaların cinayət-hüquqi pozuntuları, ictimai sığorta, idarətmə, təsərrüfat müqavilələri və kontraktlarının bağlanmasına dair, sertifikat və istehlakçı hüquqları məsələlərinə, vergi hüququ və vergi siyasətinə, kollektiv müqavilə tənzimlənməsi predmetlərinə dair, əmək qanunvericiliyi, xaricdə investisiya məsələlərinə dair, danışıqlar aparmaq bacarığı və digər aktual məsələlərə dair çoxlu miqdarda vəsait nəşr edilmişdir.

Çox vaxt mühasibat uçotu məsələlərinə dair vəsaitlərdə fond uçotu metodikası, pul vəsaitləri, maliyyə investisiyaları, istehsalat, müraciətlər, gəlirlər və s. onların bölüşdürülməsi və vergi konkret nümunələrlə ifadə olunur. Çox zaman mühasibat uçotunun roluna diqqət hər hansı müəssisənin fəaliyyətindəki kommersiya müvəffəqiyyətinin (uğurunun) təmin olunması faktoru kimi vurğulanır. Bu nəşrlərin xüsusiyyəti bir də budur ki, bunlarda çox vaxt dövri hesablamaların tərtibini tamamilə reqlamentləşdirən normativ sənədlər verilir. Elə praktiki vəsaitlər var ki, onlarda biznes-plan, onun işlənib hazırlanması proseduru göstərilir. Biznes-planların sahibkarlıq fəaliyyətinin əsası olduğunu nəzərə almaq vacibdir.

İstehsalat-praktik xarakterli vəsaitlərin çoxunda bu suallara cavab verilir: sahibkarlıq fəaliyyətinə nədən başlamalı, xüsusi işləri necə görməli, müəssisə növünü və formasını necə seçməli, onları necə idarə etməli, müvəffəqiyyət qazanmaq istəyən iş adamı necə geyinməli və özünü necə aparmalı.

Bir sıra vəsaitlərdə müxtəlif xarakterli zəmanətlər verilir:

a) xarici bazara (xüsusilə yeni əmtəələrlə) çıxışa dair, planlaşdırma və reklama dair, biznes üçün şəraitə dair.
b) ABŞ-da, Yaponiyada və digər ölkələrdə biznesin təşkili təcrübəsinə, hüquqi xüsusiyyətlərinə, sənədlərin orijinalından istifadə etməklə müəssisələr yaradılması prosedurasına, müqavilələrin bağlanması və istifadəsi, kommersiya mübahisələrinin tənzimlənməsi təcrübəsi, bank müəssisələrində hesabların aşılması qaydaları.
c) Kredit kartlarının alınması, biznesin vergiqoymasına və s. dair.

Sahibkarlıq fəaliyyətinin təşkili üçün müqavilələr bağlanmasına dair zəmanətlərin böyük təcrübi əhəmiyyəti vardır. Bunlar alqı-satqı müqavilələrinin, texniki yardım göstərilməsinə dair müqavilələrin və s. daxil olduğu müqavilə münasibətlərinin əsas məsələlərini şərh edir.

Hazırda müxtəlif metodiki vəsaitlər nəşr olunmuşdur. İqtisadiyyata və reklam fəaliyyətinin təşkilinə, faktorinq və lizinq münasibətlərinin tətbiqinə dair metodiki vəsaitlərin adını çəkmək olar. Təcrübi (praktiki) vəsaitlər sırasında xarici partnyorlarla işgüzar yarışma qaydaya salınır. Kommersiya yarışmalarının xüsusi qaydaları və formaları şərh olunur: tələbatı olmayan təkliflər, potensial müştərilərə tələbat, sorğulara cavablar, sifariş, müştərilərin yerləşdirilməsi, firmanın statusuna dair sorğu, kompaniyanın maliyyə vəziyyətinə dair suallara cavablar, sığorta, ödəniş şərtləri, gömrük rəsmiyyəti və s. müxtəlif iqtisadi məsələlərə aid normativ-metodiki materialların toplandığı, qiymətli kağızların mahiyyətini açıqlayan, sənəd nümunələri olan praktiki vəsaitlər vardır. Bunlarda təsisetmə sənədləri, müqavilələr, kontraktlar, razılaşmalar, sazişlər şərh olunmuşdur. Sahibkarlıq fəaliyyəti üçün aksioner cəmiyyətlərinin məhdud məsuliyyətli cəmiyyətlərin nizamnamələrinin nümunələri, kiçik birgə müəssisələrin müqavilələri, kirayə hüquqlu icarələrin, qeyri-yaşayış binalarının icarələrinin, torpaq sahəsi icarələrinin müqavilələri, kredit, borcların müqavilələri və s. böyük əhəmiyyət kəsb edir.



**Statistik nəşrlər.** Müasir şəraitdə statistikanın rolu daim artmaqdadır. Statistika elə bir informasiya verir ki, indiki vaxtda alim, siyasətçi, diplomat və b. onsuz keçinə bilməz.

Quruluşca statistika bir sıra sahələrdən ibarətdir. Bunlar onun tarixi inkişaf prosesində ayrılmışlar. Bu, hər şeydən əvvəl statistikanın ümumi nəzəriyyəsidir. O ictimai hadisələrin statistik tədqiqinin ümumi prinsipləri və qaydalarını şərh edir, statistikanın daha "ümumi" göstəriciləri haqqında anlayış verir. Ən mühüm ümumiləşdirici elmlər iqtisadi-ictimai statistikadır. İqtisadi statistika iqtisadi göstəricilərin şərhi, ictimai statistikanın vəzifələrinə isə ictimai həyatın müxtəlif sahələrinə dair göstəricilərin işlənib hazırlanmasıdı. Səviyyədə iqtisadi və ictimai statistikanın bir sıra sahələrini (sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə, tikinti, maliyyə, əmək statistikası, mədəniyyət, elm, təhsil, səhiyyə, hüquq, və s.) ayırmaq olar. Sahə statistuk elmlərin vəzifələri adekvat sahələrin statistik göstəricilərinin işlənib hazırlanmasından ibarətdir. Statistika bilik və praktiki fəaliyyətin müxtəlif bilik sahələrinə də sirayət edir. Bu statistikaya dair sənəd axınının xüsusiyyətlərinə ciddi təsir göstərir və onun informasiya təminatının spesifikasını yaradır.

Statistika məlumatlarının iki əsas qrupunu fərqləndirmək olar:

1) ictimai institutların, müəssisələrin, idarələrin vəzifələrini reallaşdırmaq məqsədilə dövlət ehtiyatları üçün toplanan məlumatlar aiddir.
2) müxtəlif yarışmalar, cari statistika məlumatları aid edilir. Statistik materiallarının toplanması və işlənməsi statistika elminin qaydalarına uyğun olaraq adekvat aspektdə həyata keçirilir. Statistika materialları, cədvəlləri, məcmuələri statistik materiallara aiddir; bunlar iqtisadiyyatı öyrənmək üçün ən mühüm mənbələrdir və bu sahədə elmi-tədqiqat və praktiki fəaliyyət üçün əhəmiyyət kəsb edir. Statistik materiallar əsasında iqtisadiyyata dair çoxlu soraq ədəbiyyatı işlənib hazırlanır. Statistik materialların nəşrinin əsas növü statistika məcmuələridir (toplularıdır).

Statistik nəşrlər iqtisadi ədəbiyyatın ən spesifik tiplərindən sayılır. Bu iqtisadiyyata dair sənəd axınında mühüm və müstəqil istiqamətdir. Statistikanın bütün inkişaf mərhələlərində statistik nəşrlərə çox böyük diqqət verilir.

Statistik nəşrlərin materialları iqtisadi təcrübədə, xüsusilə xalq təsərrüfatının idarə edilməsində hərtərəfli tətbiq edilir. Ölkəmizdə iqtisadi rəqəmlərə ümumxalq marağı fasiləsiz olaraq artır.

Ölkəmizdə çoxlu miqdarda statistik nəşrlər çap olunur. Bu işlər dövlət statistika orqanlarının, müəssisə statistik orqanlarının statistik nəşrləri, müxtəlif elmi proqramların və seçmə tədqiqatların əsasında alınmış statistik nəşrlər – monoqrafiyalardır.

Statistik nəşrləri əlamətlərinə görə: məzmununa, nəşr formasına və dövriliyinə görə, ərazi üzrə yerləşməsi və mənsubiyyətinə görə fərqləndirmək olar. Bunları əsasən qeyd olunan aspektlərdə şərh etmək mümkündür:

1) tarixin yekunu kimi;
2) müasir təcrübənin nailiyyəti kimi;
3) gələcəyə xidmət kimi.

Ölkə statistikasının tarixinə geniş problemlər mövcuddur. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) statistikanın təşkili tarixinin və metodologiyasının tədqiqi;
2) statistika elmi və təcrübəsinin inkişaf tarixi;
3) statistika tarixi;
4) statistika ədəbiyyatının inkişaf tarixi.

1) Statistikaya dair sənədlərin bu növləri vardır:
1) dövlət statistikasına dair qanunvericilik aktları;
2) statistikanın müşavirə, konfrans və qurultaylarının sənədləri;
3) statistika işlərinin planları;
4) yarışmalar eynivaxtlı və seçkili tədqiqatların keçirilməsi üçün statistik hesablamalar və sənəd formaları.

Statistik nəşrləri aşağıdakı əsas istiqamətlərə ayırmaq olar:

1) ümumi xarakterli statistik nəşrlər (bütövlükdə xalq təsərrüfatının inkişafına dair məlumatlar olan nəşrlər);
2) sahəvi və tematik statistik nəşrlər;
3) Azərbaycan dövlət orqanlarının, vilayət, ölkə və şəhərlərinin statistik nəşrləri;
4) dövri statistik nəşrlər.

Statistika materialları – iqtisadi informasiyanın ən mühüm mənbəyidir. Müasir statistikanın ən mühüm mənbəşünaslıq işləri, mütəxəssislər üçün qiymətli dərslik, vəsait statistik nəşrlərin biblioqrafik göstəriciləridir. Statistik göstəricilər statistika tarixinin inkişaf tarixinin öyrənilməsində ən mühüm istiqamət kimi izah edilir, statistikanın bir elm kimi mürəkkəbliyi və özünəməxsusluğu barədə anlayış verir. Statistik nəşrlərə statistik tədqiqatların həlledici mərhələsi kimi baxmaq olar. Bunlar statistikanın bütövlükdə xarakteri, onun məziyyətləri (yaxşı cəhətləri və çatışmazlıqları, problemləri və ziddiyyətləri) barədə mühakimə yürütməyə imkan verir. Respublikada iqtisadi-informasiyaya aid məlumatları özündə əks etdirən nəşrə nümunə olaraq "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" adlı biblioqrafik göstəricini qeyd edə bilərik. Bu



göstərici 2007-ci ildə M.F.Axundov adına Milli Kitabxananın "Diyarşünaslıq və biblioqrafiya" şöbəsi tərəfindən I buraxılışı çap olunmuşdur.

Birinci buraxılışda verilən məlumatlar 2004-cü ilin fevral, 2006-cı ilin dekabr aylarını əhatə edir. Biblioqrafiyanın I bölməsində ədəbiyyat illər üzrə oxuculara təqdim edilir.

"Dövlət Proqramının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin regionlara səfəri" adlı II bölmədə materiallar iqtisadi rayonlar üzrə (Proqramda verilən ardıcıllıqla) qruplaşdırılmışdır.

"Regionların sosial-iqtisadi inkişafına dair monoqrafiya və tədqiqatlar" adlı III bölmədə kitablar və dissertasiyalar illər üzrə əlifba sırası ilə yerləşdirilmişdir.

Biblioqrafiyanın IV bölməsində ümumi xarakterli jurnal və qəzet məqalələri, sonra isə digər materiallar regionların əlifba sırası ilə qruplaşdırılmışdır. Göstəricinin sonunda "Müəlliflərin əlifba göstəriçisi" və "Coğrafi adlar göstəricisi" verilmişdir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" adlı biblioqrafik göstəricinin ikinci buraxılışı 2009-cu ildə M.F.Axundov adına Milli kitabxanasının "Diyarşünaslıq Elmi Biblioqrafiya" şöbəsi tərəfindən nəşrə hazırlanaraq çap edilmişdir. İkinci buraxılışda verilən materiallar isə 2007-2008-ci illəri əhatə edir. Biblioqrafiyanın bölmələrində ədəbiyyat illər üzrə verilmişdir.

Statistik nəşrlərdə istiqamətləndirici biblioqrafik göstəricilərin, səlnamələrin nəşrindən söhbət açmaq çətindir. Çünki bu sahədə hələ də boşluq özünü göstərməkdədir.

Aparılan araşdırmalar nəticəsində məlum olur ki, ölkəmizdə iqtisadiyyata dair çap olan nəşrlər içərisində: iqtisadi eilmlər, ümumi iqtisad elmləri, əməyin iqtisadiyyatı, regionların iqtisadiyyatı, iqtisadiyyatın təşkili və əməkdaşlıq formaları, maliyyə və bank işi, iqtisadi vəziyyət, siyasi iqtisadiyyat, iqtisadiyyatda planlaşdırma və idarəetmə, qiymətlər, ticarət, beynəlxalq iqtisadi əlaqələr, ticarətin ümumi məsələləri, daxili ticarət, beynəlxalq maliyyə, beynəlxalq iqtisadi əlaqələr, məişət xidməti, ticarət, iqtisadi kibernetika, marketinq, ərazi iqtisadiyyatı, sahibkarlıq, beynəlxalq biznes üzrə ktablar işıq üzü görmüşdür.

**Seriyalı nəşrlər**. Dünya ölkələrində nəşriyyatların formalaşması və inkişafı ilə bərabər kitabların seriyalarla buraxılması, onların formalaşması və inkişafı da həyata keşirilmişdir. Kitabın seriyalarla buraxılmasına nəşriyyatlar həmişə diqqət və qayğı ilə yanaşmışlar. Çünki kitabın seriyalarla buraxılması bir neçə cəhətdən əhəmiyyətlidir. Hər eydən əvvəl kitabın seriyalarla buraxılması kitab nəşri mədəniyyətinin göstəricilərindən biridir. İstənilən ölkədə müxtəlif elm və bilik sahələrinə dair müxtəlif oxucu qruplarını nəzərdə tutan və çap edilən kitab seriyaları, onların inkişafı həmin ölkədə, həmin xalqda kitab nəşri mədəniyyətinin inkişaf səviyyəsini göstərən amillərdən biridir. Çünki kitabların seriyalarla buraxılışı kitab tərtibatının gözəlləşməsinə, yaxşılaşmasına və oxucular tərəfindən rəğbətlə qarşılaşmasına və nəhayət kitabın beynəlxalq nüfuzunun artmasına əsas olan amillərdən biridir. Digər tərəfdən

kitabların seriyalarla buraxılışları kitabın müəyyən oxucu qrupları üçün çap edildiyini göstərir və kitabın geniş yayılmasına, təbliğinə əsas olur [8, 39].

Kitabın seriyalarla buraxılışlarının həm də, ayrı-ayrı elm sahələri üzrə aktual mövzulara dair materialların öyrənilməsinə və yayılmasına imkan verir. Nəticədə müəyyən oxucu qrupunu nəzərdə tutan kitabların bədii tərtibatı eyniləşir, yəni hər hansı bir seriyada yüzlərlə eyni formatda, eyni bədii tərtibatda kitablar meydana gəlir və yayılır. Buna görə də nəşriyyatlar, o cümlədən Azərbaycan nəşriyyatları, yarandıqları fəaliyyət göstərdikləri ilk dövrlərdən kitabların seriyalarla buraxılmasına xüsusi diqqət yetirmişlər. Bu baxımdan da iqtisadiyyatın aktual məsələlərinə dair kitabların seriyalarla buraxılması olduqca əhəmiyyətlidir.

Seriyalarda görkəmli xarici müəlliflərin daha məşhur praktiki, nəzəri, tədris və kütləvi əsərləri nəşr olunması informasiyanın öz oxucusuna çatması üçün məqsədyönlü həyata keçirilən nəşr mədəniyyətidir. Lakin nədənsə iqtisadiyyata dair əsərlərin seriyalarla nəşr edilməsinə ölkə nəşriyyatları tərəfindən önəm verilmir.

**Nəticə.** Apardığımız araşdırmalar nəticəsində gəldiyimiz qənaətlərdən biri də budur ki, ölkəmizdə maliyyə-iqtisadi problemlərə həsr olunaraq müdafiə olunmuş dissertasiyalar barədə biblioqrafik göstərici tərtib etmək (mövzular və dövrlər üzrə) və bu tərtib olunmuş elmi-köməkçi vasitə ilə istənilən informasiyanı əldə etmək əlverişli olar. Bunun üçün dövlət və özəl nəşriyyatlar, həmçinin kitabxanalar müəyyən tədbirlər həyata keçirməlidir.

Əldə olunan nəticələrdən biri də budur ki, ölkəmizdə ana dilində iqtisadi informasiya mənbələri digər dillərə nisbətən üstünlük təşkil edir. Azərbaycan dilindən sonra rus, ingilis, alman, türk və digər dilləri biz qeyd edə bilərik. Bunu aşağıda təqim etdiyimiz diaqram daha aydın izah edir. [bax: diaqram 2]

**Diaqram 2**






Aparılan araşdırmalar nəticəsində məlum olur ki, Azərbaycanda XIX əsrdən irili xirdalı mətbəələrin, nəşriyyatların yarandığı vaxtdan iqtisadiyyata dair müxtəlif növlü və tipli kitabların çapı həyata keçirilmişdir. Bu nəşrlərin inkişaf dinamikasını təqdim etdiyimiz diaqram üzrə müəyyən edə bilərik: [Bax: diaqram 3]

***Respublikada iqtisadiyyata dair kitab nəşrinin inkişaf dinamikası 1850-2000-ci illər***

**Diaqram 3**




Tədqiqatlar nəticəsində məlum olur ki, ökəmizdə iqtsadiyyata dair müxtəlif istiqamətli informasiya əldə etmək üçün kitablar, dövri mətbuat orqanlarında dərc edilmiş məqalələr, elektron və izo nəşrlərə müraciət etmək mümkündür. Bu nəşrlər içərisində təbii olaraq, kitablar birinci yerdə dayanır. Bunun növbəti təqdim etdiyimiz diaqramda daha aydın görə bilərik. [bax: diaqram 4]

**Diaqram 4**



Digər ölkələrlə müqayisədə Azərbaycanda iqtisadi-informasiya resurslarının nəşri birinci yerdə dayanır [bax diaqram 5]

**Diaqram 5**

İqtisadi-informasiya resurslarının ölkələr üzrə nəşrinin inkişaf dinamikası




Ümumiyyətlə, aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1980-ci illərin sonlarında ölkəmizdə iqtisadiyyat üzrə kitabların nəşri dövlət nəşriyyatları tərəfindən çap edilmişdir. Bunlar aşağıdakılardır:

"Azərnəşr", "Kommunist", "Elm", AzETETİİ, LMİİ, ADU, "Maarif", ASE, Azərbaycan Universiteti. Bu nəşriyyatların içərisində həm ad, həm də tiraj etibarilə birinci yerdə "Azərnəşr" (ən azı 2000, ən çoxu 10000 nüsxə) dayanmışdır.

1990-cı illərdə 1995-ci illəri araşdırarkən məlum olur ki, iqtisadiyyata dair ədəbiyyatın nəşrini həyata keçirən nəşriyyatların sayı çoxalmışdır. Təbii ki, bu dövrlə əlaqədardır. Çünki 1990-cı illərin əvvəllərindən ölkəmizdə xeyli sayda özəl nəşriyyatlar yaranmağa başladı. Öz çap məhsulları içərisində iqtisadiyyata dair kitabların çapını həyata keçirən nəşriyyatlardan: "Oğuz eli" (150-200), "Ergün" (500-1000 nüsxə), "Siyasət" (1000-2000 nüsxə), "İrşad", "Sabah"ın (1500-2000 nüsxə) adını qeyd edə bilərik.

Dövlət nəşriyyatları içərisində "Azərnəşr", "Azərbaycan" (2000-5000 nüsxə), "Maarif" (1000-3000 nüsxə), "Elm" (3000-5000 nüsxə), "Yazıçı" (1000-10000 min nüsxə), Azərbaycan Ensiklopediyası NPB (500 nüsxə), Bakı Universiteti nəşriyyatının (10000-20000 nüsxə) da adını xüsusi qeyd etməliyik.

Bu illərlə bəzi müqayisəli təhlillər apararkən məlum olur ki, 1990-1995-ci illərdə də çap məhsuluna görə "Azərnəşr" ad və tiraj etibarilə üstünlüyü (ən az 1000, ən çoxu isə 10000 nüsxə olmuşdur) əldən verməmişdir.

1995-ci ildən 2000-ci illərədək apardığımız araşdırmalar nəticəsində məlum olur ki, iqtisadiyyata dair kitab çap edən özəl nəşriyyatların sırasına "Səda", "Əbilov, Zeynalov və oğulları", "Təhsil", "Ağrıdağ", "Qanun",



"Hüquq ədəbiyyatı", "Çaşıoğlu", "Şərq-Qərb", "Təfəkkür", "Odlar yurdu", "Mütərcim", "Şuşa", "Kür", "Altay", "Tuna", "Ulu", "Yeni nəsil", "Nasir", "Ünsiyyət", "Şirvannəşr", "Nağıl evi" kimi nəşriyyatlar da daxil oldu.

Bu illərdə dövlət nəşriyyatları içərisində "Azərnəşr", "Elm", "Maarif" iqtisadiyyata dair kitabların nəşrinə daha çox üstünlük vermişdir.

2001-ci ildən 2010-cu ilə qədər ki, tədqiqatlar nəticəsində məlum olur ki, iqtiadiyyata dair kitabların çapına üstünlük verən özəl nəşriyyatların sırasına "Minimaks" NPM, "Qorqud", "Zaman", "Adiloğlu", "Elm və həyat", ABU NPM, "Nurlan", "Şur", "Qapp-poliqraf", "Ozan", "Poliqraf", "Asiya", "Biznesmenin bülleteni", "R.N.Novruz", "Qərb universiteti", "El-Alliance", "Qafqaz", "Bakı", "Ekspert jurnalı", "Kooperasiya", "Mars-Print" "Təknur", "Aspoliqraf", "Çiraqlı", "Çıraq", "Yellow Pages", "Minimax Consultinq", "Busines press", "Rec-Nəşir", "İqtisadi tədqiqatlar mərkəzi", "Ulu" İKF, "Naşir", "Orxan", "Nurlar" NPM, "Poligraphic production", "İqtisadiyyat və audit jurnalı", "Günəş" kimi nəşriyyatlar da daxil olur.

Lakin artıq bu illərdə dövlət nəşriyyatları içərisində "Azərnəşr"in adını ilk sırada qeyd etmək mümkün deyil. Bu illərdə, yəni 2001-2010-cu illərdə ölkəmizdə ən çox iqtisadi ədəbiyyat çap edən dövlət nəşriyyatları içərisində "Elm" nəşriyyatının adını xüsusi qeyd edə bilərik. "Elm" nəşriyyatı bu illərdə xüsusilə, monoqrafiyaların, dərsliklərin, dərs vəsaitlərinin nəşrinə daha çox üstünlük vermişdir. Doğrudur, çap edilən iqtisadiyyata dair kitabların tirajı 300, 500, çox nadir hallarda 1000 nüsxə olmuşdur.

2001-2010-cu illərdə "İqtisad univeristeti", Azərbaycan Dövlət Neft Akademiyası, BDU, "Azərbaycan Universiteti" nəşriyyatları da müəyyən qədər əhəmiyyətli nəşrlər çap etmişlər. Təbii ki, bu nəşrlər içərisində dərsliklər, dərs vəsaitləri, elmi nəşrlər – monoqrafiyalar üstünlük təşkil etmişdir.

2001-2010-cu illərin fərqli xarakterik xüsusiyyəti isə iqtisadiyyata dair ədəbiyyatın nəşrində mühüm rol oynayan (istər dövlət nəşriyyatlar olsun, istərsə də özəl nəşriyyatlar) nəşriyyatların çap məhsulunun tirajı olduqca aşağı (ən çox hallara 250, 300, 500) səviyyəyə enmişdir.

2010-2020-ci ilə qədərki dövrü araşdırarkən məlum olur ki, dövlət nəşriyyatlardan ən çox (il ərzində 5-10 adda) "Elm", "Azərnəşr", lakin çox az sayda (il ərzində 3-5 adda) "Azərbaycan", "Gənclik" nəşriyyatları tərəfindən çap olunmuşdur. Təbii ki, tiraj da yüksək deyildir (300-500 müsxə).

Qaldı ki, özəl nəşriyyatların bu sahədəki fəaliyyətinə, təbii ki, bu illər (2010-2020 il) ərzində də, çox sayda yeni nəşriyyatlar yaranmışdır ki, bunlar da öz fəaliyyətlərində iqtisadiyyata dair kitabların çapına müəyyən qədər yer ayırmışlar. Bu nəşriyyatlardan: "Nafta-Press", "Mux-Offset", "Çənlibel", "Vətən", "Latterpres", "M-Dizayn", "MBM", "Biznes xəbərləri", Qərb universiteti Nəşriyyat Poliqrafiya Mərkəzi, "Meqabayt", İqtisadi Tədqiqatlar Mərkəzi, "Avropa", "Ləman NP", AZE Konsaltinq Qrup, Headstart İnternational, "E.L." NPŞ MMC, "Bilik", Elmin İnkişaf Fondu, "Apastroff", "Ziya", CBS, METM, "AZAL" QSC Poliqrafiya Mərkəzi, Təhsil İşçisi MMC, "İdeal-Print",

YEK Praduction, "Kompas", "Turxan", Zərdabi LTD MMC, MSV nəşr, Color Print, Teas-Pres, Printing Company, "Ol" MMC, "Neoprint", QHT, "Papirus", "Alatoran", "Tərəqqi", Yeni Poliqrafist MMC, Ecoprint, "Vektor", Mekan Serves NN, MG Consulting, Bestpack, Politex, Digesta və s. adlarını qeyd etmək olar. Bu nəşriyyatların əksəriyyətinin redaksiyaları yox, əsasən mətbəə kimi fəaliyyət göstərirlər. Təbii ki, çap məhsulunu ad və tiraj etibarilə araşdırarkən məlum olur ki, il ərzində əksəriyyəti bir adda kitab nəşr etmiş, tiraj isə 100, 200, 300, 400, 500 olmuşdur.

İqtisadiyyata dair nəşrlərin çapını ixtisaslaşmış nəşriyyatlar həyata keçirə bilər. İqtisadiyyata dair şöbəsi olan nəşriyyatlar da bu cür kitabları nəşrə hazırlaya bilərlər. Yuxarıda illər üzrə apardığımız araşdırmalar, müqayisəli təhlillər bir daha sübuta yetirir ki, iqtisadiyyata dair çap məhsullarının nəşrini bu cür təcrübəsiz, yeni-yeni yaranan nəşriyyatlara həvale etmək olmaz. Təsəvvür edin, bir rəqəmin, bir müqayisəli təhlilin nəşrdə səhv getməsi gələcəkdə nə qədər isnadların yanlış olmasına səbəb ola bilər. İqtisadiyyat mühüm sahələrdən biridir. Bu cür nəşrlərin üzərində peşəkar, ixtisaslaşmış redaktorlar işləyə bilərlər.

**Nəticə** olaraq qeyd etmək olar ki, sovetlər dönəmindən fərqli olaraq müstəqillik illərində iqtisadiyyata dair kitablar ad və tiraj etibarı ilə az nəşr edilir. Müəyyən çatışmazlıqlar var ki, bunun üçün həlli yolları araşdırılmalı, yeni mexanizmlər tətbiq edilməlidir. Bunları belə qeyd etmək olar:

– İqtisadiyyata dair nəşrlərin çapını həyata keçirən isxtisaslaşmış nəşriyyatların yaradılması;

– Nəşriyyatların tərkibində iqtisadiyyata dair nəşrləri çapa hazırlayan şöbəsinin yaradılması;

– Sahə üzrə xtisas redaktorlarının hazırlanması;

– İqtisadiyyata dair dissertasiyaların, avtoreferatların ayrica biblioqrafik göstəricisinin nəşr edilməsi;

– Müəyyən mövzular üzrə elektron nəşrləri özündə əhatə edən ayrıca saytların yaradılması;

– İqtisadiyyata dair nəşrlərin tipoloji bölgüyə uyğun qruplaşdırılaraq ayrıca göstəriciyə daxil edilməsi və s.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**


1. Böyük İqtisad Ensiklopediyası: 5 cilddə. /red.Akad.Ziyad Səmədzadə. –I cild. -Bakı: "Latterpres", 2012. -612 s.
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı: Biblioqrafik göstəricisi /burax.haz.Mədinə Vəliyeva və b. İxt.red.və urax.məsul.: K.Tahirov; red.G.Səfərəliyeva, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Diyarşünaslıq elmi biblioqrafiya şöbəsi. Bakı, 2007. I buaxılış, 2007. -201s.
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı: Biblioqrafik göstəricisi /burax.haz.Mədinə Vəliyeva və b. İxt.red.və urax.məsul.: K.Tahirov; red.G.Səfərəliyeva, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Diyarşünaslıq elmi biblioqrafiya şöbəsi. Bakı, 2009. II buaxılış, 345 s.





4. Elektron məlumat bazalarının yaradılması və virtual xidmət: metodik tövsiyə/tərt.e.S.Salamlı; ixt.red.və bur.məs.K.Tahirov; red.A.Abdullayeva; M.F.Axundzadə adına Azərbaycan Milli kitabxanası. –Bakı, 2012, 46 s.
5. Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı: /tərt.ed.: A.Babayeva; red.M.Vəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. –Bakı, 2009, 89 s.
6. Vergi ensiklopediyası. Bakı: Çaşıoğlu, 2013, 424 s.
7. Семенова Г.Г. Экономическая библиография: Учебник. В 2 ч. –М.: МГУКИ, 2000. Ч.1. Истоки. Объект. Специфика. Ч.2. Организация и методика. –М.: Изд-во Моск. Гос.ун-та культуры и та культуры и искусств, 2000,. -320 с.
8. Abasova L.Q. "Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr"in kitabların seriyalarla nəşr edilməsində rolu və yeri" // Kitabşünaslıq və nəşriyyat işi: elmi-nəzəri və təcrübi jurnal. –Bakı, 2010. -№1 (6).s.39-47.


**Надир Исмайылов, Лейла Абасова**

**Типология документов и информационных ресурсов по экономике**

**Резюме**


*В статье анализируеться важность выделения документального потока в экономике в соответствии с содержанием ряда признаков (содержание, постановка целей, читательская аудитория, формы или типы документов и т. д.). В статье отмечается, что при постановке целей особое внимание следует удельять иерархия документальных потоков в экономике. В этом случае необходимо рассмотреть два процесса: 1) процесс изготовления документов; 2) процесс использования документов.*

*В статье также отмечается, что применение экономической деятельности является одной из основных компонентов для формировании экономической библиографии при разделении документооборота. Процесс производства документов осуществляется в двух сферах экономической деятельности: экономической науке и хозяйственной практике. При этом, учитывая потребности научной сферы экономики, можно выделить следующие виды экономической литературы: научно-исследовательская, научно-массовая, учебная, справочная. Отдельно в исследование включены виды экономической литературы, упомянутые в статье.*


***Ключевые слова:*** экономика, документально-информационные ресурсы, типология, издание, постановка целей, документ, библиография, научная литература, справочная литература, научно-популярная литература, учебная литература, серийные издания.

**Nadir Ismailov, Leyla Abasova**

**Typology of document - information resources on economy**

**Summary**


*The article discusses the importance of allocating the flow of documents on the economy in accordance with the content of a number of features (content, goal setting, readership, forms or types of documents, etc.). The article notes that in setting*

*goals, special attention should be paid to the stratification of documentary flows in the economy. In this case, it is necessary to consider two processes: 1) the process of production of documents; 2) the process of using documents.*

*The article also notes that the application of economic activity is one of the main categories in the formation of economic bibliography in the separation of document flow. The process of document production is carried out in two spheres of economic activity: economics and economic practice. In this case, taking into account the needs of the scientific sphere of economics, we can distinguish the following types of economic literature: scientific-research, popular-scientific, teaching, inquiry. The types of economic literature mentioned in this article are studied separately.*

***Keywords:*** economics, document-information resources, typology, publication, goal setting, document, bibliography, scientific literature, reference literature, popular science literature, educational literature, serial publications.

**Rəyçi:** p.ü.f.dok.,dos. S.A.Sadıqova